*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 516-521*

https://doi.org/10.62837/2025.8.516

**TƏRANƏ CAVADOVA**
**AMEA Məhəmməd Füzuli adına**
**Əlyazmalar İnstitutu**
**teranecavadova062@gmail.com**
**İstiqlaliyyət, 26**

# AZƏRBAYCAN MƏTBUATININ ŞANLI YÜZ ƏLLİ İLLİK TARİXİ

**XÜLASƏ**

Azərbaycan mətbuatının şanlı tarixi 1875-ci il "Əkinçi" qəzetinin ilk nömrəsinin işıq üzü görməsi ilə başlayıb. Bu gün Azərbaycan milli mətbuatının yaranmasından tam 150 il ötür. Azərbaycanın ilk mətbu orqanının – əsası görkəmli mütəfəkkir Həsən bəy Zərdabi tərəfindən qoyulmuş "Əkinçi" qəzetinin nəşrə başladığı 22 iyul tarixi 1991-ci ildən ulu öndər Heydər Əliyevin verdiyi Azərbaycanda Milli Mətbuat günü kimi qeyd olunur. XIX əsrin sonlarına yaxın bütün Qafqazda böyük əks-səda doğuran bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri təbiətşünas-alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olub. Həsən bəy Zərdabinin həyat yoluna bir nəzər salmaq burada yerinə düşər. Azərbaycan milli mətbuatının banisi, görkəmli maarifçi Həsən bəy Zərdabi 1837-ci il iyunun 28-də Göyçay qəzasının Zərdab kəndində anadan olub. İlk təhsilini mollaxanada alıb, orta təhsilini Tiflisdə tamamlayıb. Moskva Universitetini bitirib. İxtisasca təbiətşünas olan Zərdabi 1869-cu ildə Bakı şəhərində rus dilində orta məktəbdə təbiətşünaslıqdan dərs deməyə başlayır. 1873-cü ildə Nəcəf bəy Vəzirov və Əsgər ağa Adıgözəlov ilə birgə Mirzə Fətəli Axundov "Hacı Qara" və "Lənkəran xanının vəziri" komediyalarını tamaşaya qoyur. 1901-ci ildə Bakıda azərbaycanlı qızlar üçün ilk məktəbin açılmasında yaxından iştirak edir. 1875-ci il iyulun 22-də Azərbaycanda ilk milli qəzet olan "Əkinçi"nin nəşrinə başlayır. Lakin qəzetin ömrü uzun çəkmir və 1877-ci il sentyabrın 29-da nəşri dayandırılır. "Əkinçi"nin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rolu olub. Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" qısa müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşıb. Lakin "Əkinçi"nin ömrü uzun sürməyib. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başlayıb və sonda qəzetin nəşrini dayandırıb. Buna baxmayaraq, o dövrün görkəmli maarifçiləri "Əkinçi" qəzetinin səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər. O zamandan müxtəlif enmə və

yüksəlmə dövrləri keçən Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən mayak rolunu oynayıb.

**Açar sözlər:** Azərbaycan mətbuatı, H.Zərdabi, qəzet, informasiya, Bakı, Tiflis.

1880-1890-cı illərdə Həsən bəyin Bakıda və Tiflisdə çıxan "Ziya", "Kəşkül", "Kaspi", "Novoye obozreniye" və digər qəzetlərdə Azərbaycan və rus dillərində çoxlu elmi-kütləvi məqalələri nəşr olunur. Ömrünün sonlarına yaxın Bakı Şəhər Dumasının maarif şöbəsində işləyir. 1907-ci il noyabrın 28-də Bakıda vəfat etmiş və Köhnə Bibiheybət məscidinin yaxınlığında dəfn olunur. Məzarı 1957-ci ildə Fəxri xiyabana köçürülmüşdür. Hal-hazırda Azərbaycan Təbiət Tarixi Muzeyi, Gəncə Pedaqoji İnstitutu Həsən bəy Zərdabinin adını daşıyır. (2).

Ümummilli lider Heydər Əliyev söyləmişdir: "Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir." Sivil insan cəmiyyəti formalaşandan azad fikir və sərbəst düşüncə ifadə etməyə, obyektiv informasiya almağa ciddi ehtiyac duyulub. Mətbuat yarandığı vaxtdan hər bir fərdin ayrı-ayrılıqda özünüifadə etmək istəyi əsrlər boyu insanlığın demokratik ideallar uğrunda mübarizəsinin də əsas mahiyyətini təşkil edib. Dövlətlər arasında işgüzar, iqtisadi münasibətlər qurularkən öncə hansı dəyərlərə sahib olduğuna nəzər salınır - araşdırılır. Maddi dəyərlərindən əvvəl ölkənin milli-mənəvi dəyərləri qiymətləndirilir. Çünki maddi dəyərlər yalnız tutarlı, zəngin ənənələrə malik milli-mənəvi dəyərlər mövcud olduğu halda mümkündür. Əsrlər boyunca Azərbaycanda da qeyri-maddi, mənəvi dəyərlərin yaradılması uğrunda mübarizələr aparılıb. Bu gün müasir cəmiyyəti mətbuatsız, mədəniyyətsiz, təhsilsiz, iqtisadi və siyasi nailiyyətlər olmadan təsəvvür etmək mümkün deyil. Mətbuatımızın keçdiyi tarixi yol qürur doğurur. Bu il Azərbaycanda milli mətbuatın, ana dilində ilk qəzetin nəşrə başlamasının 150 ili tamam olur. 1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli ruhunun formalaşmasında yeni mərhələ oldu. Əsasən maarifçilik missiyasını yerinə yetirən "Əkinçi" az müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşdı. Milli oyanışın yeni mərhələsinin təmsilçisi kimi "Əkinçi" qəzetinin başlanğıcını qoyduğu yol neçə-neçə mətbu və ədəbi məktəbin formalaşma prosesinə təkan verdi, xalqın maariflənməsinə, milli-azadlıq hərəkatının güclənməsinə birbaşa təsir göstərdi. Tarixin müxtəlif ictimai-siyasi mərhələlərində formalaşmış Azərbaycan mətbuatı xalqa, cəmiyyətə, insana xidmət borcunu şərəflə yerinə yetirdi. Mütərəqqi ideyaların carçısı olan "Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin ən böyük uğurları ilk növbədə onun mətbu dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqisinə çalışan "Əkinçi" qadın azadlığı və qadınların təhsili ideyasını təbliğ edirdi. "Əkinçi" qəzetində dövrün görkəmli alim və ziyalılarının - Nəcəf bəy Vəzirovun, Moskvadan Əsgər ağa Goraninin, Şamaxıdan

Məhəmmədtağı Əlizadə Şirvaninin, Dərbənddən Heydərinin göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundzadənin "Vəkili-naməlumi millət" imzası ilə məqalələri dərc olunurdu. O, dini mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar edirdi. "Əkinçi" Azərbaycandan kənarda da – Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə yayılırdı. Milli demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri - maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafının təməli rolunu oynadı. 1877-ci ilin 29 sentyabr tarixinə qədər "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edildi. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başladı və qəzetin nəşrini dayandırdı. Qəzetin cəmi 56 nömrəsi işıq üzü gördü. "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq bir müddət Azərbaycan dilində mətbu orqan çap olunmadı...(1,s.25). XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə nəşr etdirdiyi ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti oldu. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olub. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. "Şərqi-rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemənzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bildi. 1906-cı il aprelin 7-də Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı - "Molla Nəsrəddin" nəşrə başladı. 1918-ci ilədək Tiflisdə nəşr olunan jurnal 1921-ci ildə Təbrizdə, 1921-1931-ci illərdə Bakıda çap olundu. Bu dövr Azərbaycan ziyalılarının fəal iştirakı ilə nəşr olunan "Ziya", "Kəşkül", "Kaspi", "Həyat", "Füyuzat", "Təzə həyat", "Şəlalə", "Açıq söz", "Dirilik" kimi qəzet və jurnalların da mətbuatımızın inkişafında böyük xidmətləri olub. Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolu oldu. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir lider kimi formalaşmasında, həm də onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Bu dövrdə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir. Mətbuat tariximizdə hərb, müharibə mövzusu Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunan mətbu orqanlarında "Azərbaycan", "Açıq söz" və "İstiqlal" qəzetlərində daha geniş yer alıb. 1920-ci ilin aprel işğalından sonra Azərbaycan diviziyasının orqanı olan "Qızıl əsgər" qəzeti fəaliyyətə başlayır. 10 ildən çox nəşr edilən bu qəzetin Azərbaycan hərbi mətbuatının inkişafında xüsusi yeri var. 1922-ci ildə hərbi mətbuat

nümunələrimizdən biri olan "Savadlı Qırmızı Əsgər" adlı ilk jurnal Bakıda nəşr olundu. Ayda bir dəfə nəşr olunan, hərbi qulluqçular üçün nəzərdə tutulan ictimai-siyasi, ədəbi-elmi məcmuə yeni yaranmış Azərbaycan diviziyasının orqanı kimi fəaliyyət göstərirdi. Jurnalın nəşr olunmasında əsas məqsəd əsgərlərin maariflənməsi, onların döyüş hazırlığı, silaha qulluq qaydaları haqqında və ədəbi-bədii mövzuda yazılar dərc etmək idi. “Qızıl əsgər” adı altında nəşrini davam etdirən bu mətbu orqanını sonralar general Əlağa Şıxlinskinin təklifiylə “Hərbi Bilik” adlandırdılar. Jurnal hərbi elmi əsaslara və nəzəriyyəyə söykənərək məzmununda və tərtibatında yeniliklər etdi. Ötən əsrin 30-cu illərinin əvvəllərində bütün milli diviziyalar, bölmələr sovet ordusunun tərkibinə keçdiyindən hərbi mətbuat öz fəaliyyətini dayandırdı. Sovet ordusunun hərbi dairələrinin qəzetləri nəşrə başladı. Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan Ordusunun formalaşdığı ilk gündən Qarabağ müharibəsinin ağır döyüşlərini və əməliyyatlarını öz səhifələrində işıqlandıran milli hərbi mətbuatımız yarandı. 1992-ci ilin fevralından nəşrə başlayan "Azərbaycan Ordusu", bu qəzet ilk öncə “Xalq Ordusu” adlanırdı, “Hərbi Bilik” jurnalı bu gün ordumuzun ən dəyərli müharibə, hərbi mətbuat salnaməsini yazan mətbu orqanlarıdır. 1993-cü il iyunun 2-də Azərbaycan Ordusunun inkişaf istiqamətlərini, hərbi həyatın özəlliklərini, müharibə həqiqətlərini bütün konkretliyi ilə əks etdirmək, faktları və hadisələri sənədləşdirmək, qoruyub saxlamaq məqsədilə Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyasının əsası qoyuldu. Onların sayəsində Azərbaycan Ordusunun bu günə kimi keçdiyi şərəfli və uğurlu yoldan əhatəli məlumat əldə etmək mümkündür. Beləcə, Azərbaycan kütləvi informasiya vasitələri sırasında mühüm yer alan hərbi mətbuatımız ötən dövr ərzində böyük inkişaf yolu keçərək Qarabağ müharibəsinin döyüş salnaməsini yaratdı. Vətən müharibəsində qəzetimizin əməkdaşları üç səyyar informativ qəzet-bülletenlər hazırladılar. Bu gün "Azərbaycan Ordusu" qəzeti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Müdafiə Nazirliyinin rəhbərliyinin bütün göstərişlərini böyük məsuliyyətlə, dövlətə, dövlətçiliyə böyük sədaqətlə yerinə yetirir. (4,2).

Dövlətimizdə söz və informasiya azadlığının əldə olunması, azad informasiya mühitinin formalaşması siyasəti Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Heydər Əliyev bu sahədə dünya təcrübəsinə yaxşı bələd olan bir rəhbər kimi yaxşı bilirdi ki, hər bir ölkənin informasiya məkanı, informasiya ehtiyatları və texnologiyaları cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafının səviyyəsini və dinamikasını müəyyənləşdirir. Məhz onun prezidentliyi dövründə ölkədə azad, müstəqil, beynəlxalq rəqabətə davamlı, demokratik milli kütləvi informasiya vasitələrinin formalaşması və hərtərəfli inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirilməyə başlanmışdır. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında söz, fikir və məlumat azadlığı, hər kəsin məlumat almaq və yaymaq hüququ, KİV üzərində hər hansı

senzuranın yolverilməzliyi birmənalı şəkildə təsbit edilmişdir. XX əsrin sonlarından başlayaraq Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması, onun hüquqi-normativ bazasının qurulması, iqtisadi müstəqilliyinin təmin edilməsi üçün geniş imkanlar yaradılmışdır. Azərbaycan Prezidentinin 6 avqust 1998-ci il tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda və digər KİV-lərdə dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilərək senzuraya birdəfəlik son qoyulmuşdur. Fərmanda nəzərdə tutulan digər tədbirlər müstəqil KİV-in inkişafını, vətəndaşların beynəlxalq hüquq və Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin etmişdir. Azərbaycan Jurnalistlərinin I Qurultayında, 2003-cü ildə mətbuatın özünü-tənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizam-lanması funksiyalarını yerinə yetirən müstəqil Mətbuat Şurası yaranmışdır. (3).

Qeyd etmək lazımdır ki, Azərbaycanın müasir informasiya təminatı və təhlükəsizliyi siyasəti hüquqi, təşkilati-texniki və iqtisadi metodlarla təmin olunur. Burada hüquqi metodlar dedikdə, "informasiya sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktların, informasiya təminatı və təhlükəsizliyi ilə bağlı normativ metodiki sənədlərin işlənib hazırlanması və qəbulu nəzər-də tutulur. Təşkilati-texniki metodlara informasiya-telekommunikasiya sistemləri-nin normal fəaliyyətinə təhlükə yaradan texniki qurğuların, proqramların aşkarlan-ması və s. daxildir. İqtisadi metodlar isə informasiya təminatı və təhlükəsizliyinin təmin olunması sahəsində iqtisadi tədbirlərin görülməsi və onların maliyyə-ləşdirilməsi ilə əlaqədardır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Akif Aşırlı. Azərbaycan mətbuat tarixi (1875-1920). Bakı – "Elm və təhsil" - 2009, 296 səh.
2. Azərbaycan mətbuatı. Vikipediya.
3. Mətbuat tariximiz. Əkinçidən başlayan yol. Media agentliyi.
4. Pərviz Sadayoğlu. Müasir Azərbaycan mətbuatı böyük inkişaf yolu keçib. Yeni Azərbaycan qəzeti. 22 iyul 2011-ci il

**TARANA CAVADOVA**
**Institute of Manuscripts named after**
**Muhammad Fuzuli of ANAS**

## THE GLORIOUS HUNDRED AND FIFTY YEARS OF HISTORY OF THE AZERBAIJAN PRESS

**Keywords:** Azerbaijani press, H. Zardabi, newspaper, information, Baku, Tbilisi.

**SUMMARY**

The glorious history of the Azerbaijani press began with the publication of the first issue of the "Ekinchi" newspaper in 1875. Today, exactly 150 years have passed since the establishment of the Azerbaijani national press. July 22, the date of

the beginning of the publication of the first Azerbaijani press, the “Ekinchi” newspaper, founded by the prominent thinker Hasan bey Zardabi, has been celebrated in Azerbaijan as the National Press Day since 1991, as declared by the great leader Heydar Aliyev. The publisher, editor, and proofreader of this newspaper, which caused a great resonance throughout the Caucasus towards the end of the 19th century, was the naturalist-scientist Hasan bey Zardabi, one of the founders of the Azerbaijani national enlightenment movement. Mirza Fatali Akhundzadeh, Seyid Azim Shirvani, Najaf bey Vazirov, Asker agha Gorani, and other intellectuals played a great role in the creation of the newspaper. It is appropriate to take a look at the life path of Hasan bey Zardabi. The founder of the Azerbaijani national press, a prominent educator, Hasan bey Zardabi was born on June 28, 1837 in the village of Zardab, Goychay district. He received his primary education in a mullahkhana and completed his secondary education in Tbilisi. He graduated from Moscow University. Zardabi, who was a naturalist by profession, began teaching natural science at a Russian-language secondary school in Baku in 1869. In 1873, together with Najaf bey Vezirov and Asker aga Adigozalov, Mirza Fatali Akhundov staged the comedies "Haji Gara" and "Lankaran Khan's Vizier". In 1901, he closely participated in the opening of the first school for Azerbaijani girls in Baku. On July 22, 1875, he began publishing the first national newspaper in Azerbaijan, "Ekinchi". However, the newspaper did not last long and its publication was stopped on September 29, 1877. Although only 56 issues of "Ekinchi" were published from July 22, 1875 to September 1877, it played an indispensable role in the formation and development of the Azerbaijani national press. "Ekinchi", which mainly undertook the mission of enlightenment, became very popular among both the intelligentsia and ordinary people in a short time. However, the life of "Ekinchi" did not last long. Tsarist Russia began to shy away from the role of the newspaper in educating people and making them more closely acquainted with socio-political processes, and eventually stopped publishing the newspaper. Nevertheless, prominent educators of that time, propagating their enlightening and democratic ideas on the pages of the "Ekinchi" newspaper, had a great influence on the development of social, political and artistic thought. Since then, the Azerbaijani press, which has gone through various periods of decline and rise, has always played the role of a beacon reflecting society's view of processes.

**Rəyçi: fil.ü.f.d. Samirə Əliyeva**